AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 32 (1492), 5 - 11 oktyabr 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## MOK-un baş katibinin müavini EYOF Koordinasiya Komissiyası üzvlərinin toplantısında iştirak edib

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini Azər Əliyev 2022-ci il Avropa Gənclər Yay Olimpiya Festivalının (EYOF) Koordinasiya Komissiyası üzvlərinin toplantısında iştirak edib.

EYOF-un Koordinasiya Komissiyası Slovakiyanın Banska-Bistrisu şəhərində təşkil olunub. Tədbir iştirakçıları festivalın təşkilatçıları tərəfindən hazırlıq işlərinin gedişi ilə bağlı ətraflı məlumatlandırılıblar. Qonaqlar qarşıdan gələn EYOF çərçivəsində tədbirlərin keçiriləcəyi idman qurğuları, yaşayacaqları bina və obyektlərlə tanış olublar.

MOK baş katibinin müavini Azər Əliyevin də təmsil olunduğu Koordinasiya Komissiyasının üzvləri şəhərin mərkəzində yerləşən və böyük tamaşaçı kütləsi cəlb edəcəyi proqnozlaşdırılan yeni atletika stadionu, üzgüçülük hovuzu, triatlon üçün meydança, cüdo və badminton zalları, tennis kortları və fan zonadan ibarət mərkəzi idman klasterinə baxış keçiriblər.

Təşkilat Komitəsinin və Slovakiya Milli Olimpiya Komitəsinin gənc komandasının gerçəkləşdirdiyi üçgünlük səfər şəhər meri Yan Noskonun iştirakı ilə baş tutan mətbuat konfransı ilə yekunlaşıb.

Komissiyanın sədri Cozef Kassar səfərdən sonra bildirib ki, hazırlıq işləri ən kiçik təfərrüatlar nəzərə alınmaqla həyata keçirilir. Bianka-Bistrisuda 2022-ci ildə keçiriləcək yarışların ən yaxşı Avropa Gənclər Yay Olimpiya Festivalı olacağına əla zəmin var.

XVI EYOF pandemiya ilə əlaqədar bir il müddətinə təxirə salınmışdı və 2022-ci il iyulun 24-30-da keçirilməsi haqda qərar qəbul olunmuşdu. Qarşıdan gələn festivalda idmanın 11 növü - o cümlədən idman gimnastikası, atletika, badminton, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, triatlon və voleybol üzrə yarışlarda 2500-dən artıq idmançı gücünü sınayacaq.

## Xəzər İsayev AƏOH-un İcraiyyə Komitəsinin üzvü seçilib



Avstriyanın paytaxtı Vyanada Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) 26-cı Konqres və Assambleyası keçirilib. 22 ölkənin nümayəndəsinin iştirakı ilə keçirilən tədbirdə ölkəmizi Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) sədri, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayev və AzƏOK-un məsul katibi Aysel Sultanova təmsil ediblər. Konqresin əsas mövzusu “Ədalətli Oyunlar üçün təhsil-Təşəbbüslər və Layihələr” olub. Mövzu ətrafında bir sıra nümayəndə heyətlərinin məruzələri dinlənilib, Avropa Ədalətli Oyunlar Hərəkatının 2020/2021-ci illərin yekununa əsasən mükafatları sahiblərinə təqdim edilib. Azərbaycan nümayəndə heyəti tərəfindən AzƏOK-un 2020-2021-ci illər ərzində gördüyü işlərin hesabatı məruzə edilib.

Sentyabrın 25-də Assambleya çərçivəsində qurumun prezidentliyinə və İcraiyyə Komitəsinə seçkilər keçirilib. Səsvermənin nəticələrinə əsasən, yeganə namizəd olan belçikalı Filip Housiaux AƏOH-un prezidenti seçilib. Latviyalı Baiba Veisa, xorvatiyalı Biserka Vrbek quruma yeni vitse-prezident təyin olundular. MOK tərəfindən namizədliyi irəli sürülən AzƏOK-un sədri Xəzər İsayev 4 il müddətinə AƏOH-un İcraiyyə Komitəsinə üzv seçilib.

Tədbirin sonunda AƏOH-un yeni seçilmiş prezidentinə MOK-un xatirə hədiyyəsi təqdim edilib.

## *İlqar Rəhimov yenidən Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti seçilib*

İlqar Rəhimov yenidən Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti seçilib.

AMPK-dan “Olimpiya dünyası” qəzetinə verilən məlumata görə, sentyabrın 28-də komitənin video-konfrans rejimində ümumi yığıncağı keçirilib.

İclasda şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Daha sonra gündəlikdə duran məsələlər müzakirəyə çıxarılıb.

Komitənin baş katibi Kamal Məmmədov AMPK-nın 2017-2021-ci illərdəki fəaliyyəti barədə hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, Tokioda keçirilən XVI Yay Paralimpiya Oyunlarında 14 qızıl, 1 gümüş, 4 bürünc medal qazanan milli komandamız yüksək nəticə göstərib. Ötən Paralimpiya Oyunlarından keçən dövrdə görülən işlərin məntiqi nəticəsi olan bu uğurun həyata keçirilməsi bir komanda olaraq hər birimizin uğuru kimi qiymətləndirilə bilər. Bu uğurun davamı olaraq da 2024-cü ildə Parisdə keçiriləcək XVII Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar AMPK tərəfindən görüləcək işlər haqqında geniş məlumat verib.

Ümumi yığıncaqda Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarının mükafatçıları AMPK-ya üzv seçiliblər.

Yığıncaqda təşkilati məsələlərə də baxılıb. AMPK-nın üzvlərinin səsverməsi nəticəsində İlqar Rəhimov yenidən komitənin prezidenti seçilib. İlham Zəkiyev və Yaşar Hacıyev vitse-prezident, Kamal Məmmədov isə baş katib vəzifələrinə seçiliblər.

Yığıncaqda AMPK-nın İcraiyyə Komitəsinin yeni tərkibi də təsdiq edilib.

## *Gimnastlarımız Avropa çempionatını 3 medalla başa vurdular*

İtaliyanın Pesaro şəhərində akrobatika gimnastikası üzrə Avropa çempionatı keçirilib. Qitə çempionatında ölkəmizi böyüklər arasında qarışıq cütlüklərin yarışında Ağasif Rəhimov və Raziyə Seyidli, Murad Rəfiyev və Daniel Abbasovdan ibarət kişi cütlüyü, gənclər yaş qrupunda isə qadın qrupu tərkibində Mənsumə Məmmədzadə, Leyla Başirova və Nəzrin Fərmanova təmsil ediblər.

Akrobatlarımız yarışın elə ilk günündə uğurla çıxış edərək fəxri kürsüdə yer alıblar. Qadın qrupumuz temp hərəkətlərinə görə hakimlərdən 27,400 xal alaraq bürünc medal qazandılar.

A.Rəhimov və R.Seyidli isə komandamızın aktivinə həm gümüş, həm də bürünc medal yazdırıblar. Gimnastlarımız qarışıq hərəkətlər proqramı üzrə nümayiş etdirdikləri çıxışlarına görə 86,470 xal toplayaraq, fəxri kürsünün ikinci pilləsində qərarlaşıblar. Yarışın sonuncu günündə temp hərəkətlərinə görə bürünc medal qazanaraq, Pesaronun “Vitrifriqo Arena”sında üç rəngli bayrağımızın üçüncü dəfə ucalmasına nail olublar.

M.Rəfiyev və D.Abbasovdan ibarət kişi cütlüyü isə ən yaxşı nəticəsini qarışıq hərəkətlər proqramı üzrə göstərərək beşinci olublar.

## *A n o n s*

**BİR GÜNƏ YAZILAN QƏHRƏMANLIQ DASTANI**
Səh. 3

*İdman Akademiyasının tələbələri Yay Olimpiya Oyunlarında böyük uğurlar əldə ediblər*
Səh. 5

*Sahib Rzayev:*
**“Azərbaycan idmanında yeni nəsil formalaşmalıdır”**
Səh. 6

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*





# Gənclər və idman naziri ADBTİA-nın yeni tədris korpusu ilə tanış olub

*Sentyabrın 28-də yeni tədris ilinin başlanması münasibətilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının yeni üçmərtəbəli tədris korpusu istifadəyə verilib.*

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, gənclər və idman naziri Fərid Qayıbov yeni korpusda yaradılan şəraitlə tanış olub. Əvvəlcə Akademiyanın foyesində ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub.

Yeni tədris korpusunda auditoriyalara İkinci Qarabağ müharibəsində ADBTİA-nın şəhid olmuş 13 məzununun adları verilib və Vətən uğrunda canında keçmiş qəhrəmanların ad-soyadları yazılan lövhələr auditoriyaların qapılarına vurulub. Burada doktorantura və "SABAH" qruplarının tədrisi üçün hər cür şərait yaradılıb.

Rektor Fuad Hacıyev məlumat verib ki, Akademiyanın şəhid məzunlarının adlarına xüsusi təqaüdlər də təsis edilib.

Fərid Qayıbov Akademiyanın elmi-tədris laboratoriyasının da fəaliyyəti ilə tanış olub və burada reabilitasiya prosesi keçən qazilər Amin Musayev və Emin Eminovun səhhəti ilə maraqlanıb.

Yeni tədris ilinin başlanması münasibətilə Akademiyanın akt zalında təqdimat keçirilib və təhsil ocağının fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

"Dəri əlcək" ustalarımız dünya çempionatına hazırlaşırlar

Kişi boksçulardan ibarət Azərbaycan milli komandası təlim-məşq toplanışına start verib. Azərbaycan Boks Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, Boks Mərkəzində təşkil olunan məşqlər Serbiyanın paytaxtı Belqradda keçiriləcək dünya çempionatına hazırlıq məqsədi daşıyır. Mundial 13 çəki dərəcəsində keçiriləcəyindən məşqçilər korpusu yarışa bir həftə qalmış heyəti müəyyənləşdirəcək.

Toplanışa 20-dək boksçu cəlb edilib. Komandaya tezliklə, hərbçilərin dünya çempionatında mübarizə aparmış boksçularımız da qoşulacaqlar.

Qeyd edək ki, dünya çempionatı oktyabrın 24-dən noyabrın 6-dək keçiriləcək.

# Milli Olimpiya Komitəsinin Atletlər Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib

***Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Atletlər Komissiyasının bu ilin aprelində müəyyənləşən yeni tərkibdə ilk iclası olub. Görüşdə idmançılar ilə Beynəlxalq Olimpiya Komitəsi (BOK) arasında əlaqələndirici rol oynayan Atletlər Komissiyasının vəzifələri və planları haqda fikir mübadiləsi aparılıb.***

Olimpiya Hərəkatı ilə bağlı qəbul olunan qərarlarda idmançıların fikirlərinin də nəzərə alınması üçün Atletlər Komissiyasının fəallığının vacibliyi vurğulanıb.

MOK-un beynəlxalq əlaqələr idarəsinin müdiri Anar Bağırov bildirib ki, BOK, Avropa Olimpiya Komitəsi (AOK), eləcə də digər ölkələrin Milli Olimpiya komitələrinin Atletlər komissiyaları, ölkəmizin milli idman federasiyaları və Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) ilə qarşılıqlı əlaqə əsasında müxtəlif layihələr reallaşdırmaqla Atletlər Komissiyası idmançıların həyatlarında əhəmiyyətli rol oynaya bilər.

İclasda çıxış edən MOK-un marketinq idarəsinin müdiri Mehman Kərimov bildirib ki, Atletlər Komissiyası idman və qeyri-idman karyeralarında idmançıların inkişafına imkan yaradan, karyeralarını yüksək nailiyyətlərlə başa vurmuş olimpiyaçılara dəstək məqsədilə ictimai layihələr reallaşdıran əhəmiyyətli komissiya ola bilər.

Atletlər Komissiyasının iki üzvü - Fəridə Əzizova (taekvondo) və Nazim Babayev (atletika) Xorvatiyanın Dubrovnik şəhərində keçiriləcək atletlərin 6-cı Assambleyasına qatılacaqlar. Bu haqda iclas iştirakçılarına MOK-un idman idarəsinin müdiri Həsənağa Rzayev məlumat verib.

Qeyd edək ki, komissiyanın sədri, cüdoçu Rüstəm Orucov, üzvləri isə Sabina Mikina (qılıncoynatma), Kamran Şahsuvarlı (boks), Fəridə Əzizova (taekvondo), Nazim Babayev (atletika), Rəsul Çunayev (yunan-Roma güləşi) və Fatimə Əlkərəmovadır (üzgüçülük).

İclasda, həmçinin Assambleyada Azərbaycan nümayəndə heyətinin qaldıracağı məsələlər də müzakirə olunub.




# Dünya çempionatında ilk medal

Norveçin paytaxtı Osloda güləş üzrə dünya çempionatı keçirilir. Yarışda Azərbaycan pəhləvanları da qüvvələrini sınayırlar. Mundialın ilk günündə sərbəst güləşçilər mübarizəyə qoşulublar. Güləşçimiz Abubakr Abakarov (86 kq) almaniyalı Ahmed Dudarov, ukraynalı Məhəmməd Əliyev və Gürcüstan idmançısı Sandro Aminaşvilini məğlub edərək yarımfinala yüksəlib. Növbəti mərhələdə təmsilçimiz ABŞ idmançısı Deyvid Teylor ilə üz-üzə gəlib. Güləşçimiz son Olimpiya çempionuna məğlub olub. Bürünc medal uğrunda görüşdə təmsilçimiz Boris Makoyev (Slovakiya) ilə qarşılaşıb. Təmsilçimiz görüşdə slovakiyalı rəqibinə qalib gələrək dünya çempionatını üçüncü pillədə başa vurub. Bu, komandamızın Oslodakı dünya çempionatında ilk medalı olub.



Millimizin digər üzvü Kənan Heybətov (61 kq) startda Ukrayna təmsilçisi Yaroslav Xurskiyə məğlub olub.

Çempionatda 74 kiloqram çəki dərəcəsində çıxış edən Coşqun Əzimov debütdə inamlı qələbə qazanıb. Həmyerlimiz Keniya güləşçisi Mathayo Mahabilanı cəmi 1 dəqiqə ərzində məğlub edib. Ancaq səkkizdəbir final mərhələsində belaruslu idmançı Azamat Nurikova sonuncu xal prinsipinə əsasən uduzub.

# Azərbaycan Voleybol Federasiyasının baş katibi Avropa voleybol qalasında iştirak edib

Sloveniyanın paytaxtı Lyublyanada Avropa voleybol qalası təşkil olunub. Tədbirdə Avropa Voleybol Konfederasiyasının (CEV) İdarə heyətinin üzvü, Azərbaycan Voleybol Federasiyasının (AVF) baş katibi Cəlil Cəfərov iştirak edib. Qalada 2022-ci ildə qadın və kişi voleybolçular arasında keçiriləcək Çempionlar Liqasının püşkatma mərasimi keçirilib. Püşkatma mərasimində qruplar isveçrəli voleybol ulduzu Coana Haydrix və italiyalı Paola Eqonunun köməyi ilə müəyyən olunub.




## Karateçilərimiz ilin son Premyer Liqasında 3 bürünc medal qazandı

Azərbaycan karateçiləri Moskvada Karate1 Premyer Liqasında 3 bürünc medal qazanıblar. Təmsilçilərimiz Pənah Abdullayev (84 kq), Asiman Qurbanlı (+84 kq) və İrina Zaretska (68 kq) üçüncü yeri tutublar.

Moskvadakı nüfuzlu turnirdə 55 ölkədən 441 karateçi iştirak edib. Mövsümün son liqa turnirindən sonra kişi və qadın karateçilər noyabrda Dubayda dünya çempionatında iştirak edəcəklər.



## Avropa çempionumuza sərt cəza verildi

Azərbaycanın qadın ağırlıqqaldıranı Boyanka Kostovanın cəzası müəyyənləşib. Bu barədə Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının (İWF) rəsmi saytı məlumat yayıb. Bildirilib ki, dopinq-testi müsbət nəticə vermiş bolqarıstanlı legioner səkkiz il müddətinə yarışlardan diskvalifikasiya edilib. İdmançının cəza müddəti 2021-ci il mayın 10-dan hesablanır. B.Kostovanın orqanizmindən istifadəsi qadağan olunmuş stanozolol anabolik steroidi tapılıb. Qeyd edək ki, Boyanka Kostova bu il aprelin 5-də Rusiyanın paytaxtı Moskvada keçirilmiş qitə çempionatında 59 kq çəki dərəcəsində qızıl medal qazanıb. Bu, 28 yaşlı ağırlıqqaldıranın 2012-ci, 2015-ci və 2016-cı illərdən sonra karyerasında dördüncü Avropa çempionluğu olub. O, həm də 2015-ci il dünya çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 2016-2018-ci illərdə də dopinqə görə cəzalanmış B.Kostovanın London-2012 Yay Olimpiya Oyunlarındakı nəticəsi ləğv olunub.

## "Böyük dəbilqə" turnirində 8 cüdoçumuz yarışacaq

Oktyabrın 16-da Fransanın paytaxtı Parisdə cüdo üzrə "Böyük dəbilqə" turniri start götürəcək. İki gün davam edəcək turnirdə Azərbaycan cüdoçuları da qüvvələrini sınayacaqlar. Yalnız kişilərin mübarizəsində təmsil olunacaq komandamız yarışda 8 cüdoçu ilə mübarizə aparacaq. Komandamızın heyətində Balabəy Ağayev (60 kq), İbrahim Əliyev, İsmayıl İbrahimov (66 kq), Telman Vəliyev, Hidayət Heydərov (73 kq), Murad Fətiyev (81 kq), Məmmədəli Mehdiyev (90 kq) və Uşangi Kokauri (+100 kq) yer alıblar.



## Avropa kubokunda 11 cüdoçumuz qüvvəsini sınayacaq

Oktyabrın 16-da Xorvatiyanın Dubrovnik şəhərində cüdo üzrə Avropa kuboku start götürəcək. 2 gün davam edən turnirdə Azərbaycan cüdoçuları da qüvvələrini sınayacaq. Komandamız yarışda 11 idmançı ilə təmsil olunacaq. Belə ki, yarışda Rəşad Baxşəliyev, Sənan Əhmədov (60 kq), Yaşar Nəcəfov, Ruslan Paşayev (66 kq), Zaməddin Poladov, Rüfət Şovlatov (73 kq), Ömər Rəcəbli, Kərim Məmmədov, Məhərrəm İmamverdiyev (81 kq), Rüfət İsmayılov (90 kq) və Ruslan Nəsirli (100 kq) tatami üzərinə çıxacaq.

*Şəhidlik zirvəsinə ucalan idmançılar*

# BİR GÜNƏ YAZILAN QƏHRƏMANLIQ DASTANI

## O, Vətən müharibəsinin tarixinə general Polad Həşimovun qisasını alan qəhrəman kimi düşdü

***Qəhrəmanımız 44 günlük Vətən müharibəsində cəmi bir gün iştirak etdi. Amma bu bir gün ərzində göstərdiyi şücaətlə elə qəhrəmanlığa imza atdı ki, adı dillər əzbəri oldu. Söhbət yalnız dillərdə deyil ürəklərdə də yuva quran, 19 yaşında iki erməni polkovnikini, bir generalını və bir neçə düşmən hərbi qulluqçusunu əlləri ilə boğaraq məhv edən şəhid qəhrəmanımız Cəbrayıl Dövlətzadədən gedir.***

***Cəbrayıl Dövlətzadə həm də, İkinci Qarabağ savaşının tarixinə general-mayor Polad Həşimovun qisasını alan qəhrəman əsgər kimi düşdü.***

***Səhifələrində hər zaman Vətən müharibəsinin qəhrəmanlarına xüsusi yer ayıran “Olimpiya dünyası” qəzeti bu dəfə də bu ənənəni davam etdirir. Bu yazımızda Vətən müharibəsində iştirak edən və adını şəhidlik kimi uca bir zirvəyə yazdıran Cəbrayıl Dövlətzadəni oxucularımıza yaxından tanıdacağıq.***




Əslən Zəngilan rayonundan olan qəhrəmanımız 2001-ci il sentyabrın 11-də Sumqayıt şəhərinin Corat qəsəbəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra 2019-cu ilin oktyabr ayında hərbi xidmətə yollanıb. Ötən ilin iyul ayında baş verən Tovuz döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru Polad Həşimovun şəhid olması xəbəri Cəlilabadda Sərhəd Qoşunlarında xidmət edən Cəbrayılı olduqca məyus edib. Həmin gün onun özünə verdiyi “mən mütləq generalımız Polad Həşimovun qisasını alacağam” sözü onun geridə qalan iki aylıq həyatının əsas amalına çevrilib. Ərizə yazaraq xüsusi təyinatlı tabora qatılan Cəbrayıl Vətən müharibəsi başlayanda ailəsindən xəbərsiz könüllü olaraq döyüşlərə qatılıb. O, hərbçi yoldaşları ilə birgə Murovda düşmən mövqelərinin və xüsusi postların ələ keçirilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib. Gənc əsgər sonuncu çıxdığı döyüşünə 11 zabitlə birgə yollanıb. Cəbrayıl, yalın əllə erməni generalının və polkovniklərinin üstünə gedəndə artıq 2 ay bundan əvvəl qarşısına qoyduğu hədəfinə çatdığını yaxşı bilirdi. Düşmən postunda 11-ə yaxın müxtəlif erməni hərbçisi ilə üz-üzə gələn Cəbrayıl bir anın içində qəhrəmanlıq göstərərək, 44 günlük Vətən müharibəsinin şanlı səhifəsinə adını qızıl hərflərlə yazıb. O, təkbaşına girdiyi bu döyüşdə 2 erməni polkovnikini, 1 generalını, ümumilikdə isə 11-ə yaxın düşmən hərbçisini məhv edib.

Beləliklə, 44 günlük hərb zəfərimizdə cəmi bir gün döyüşən, lakin misli görünməmiş qəhrəmanlığa imza atan Cəbrayıl Dövlətzadə 2020-ci ilin sentyabrın 28-də aldığı güllə yarasından sonra şəhidlik zirvəsinə ucalıb.

O, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə İkinci Fəxri Xiyabanda gənc ömrünü qurban verdiyi idealı Milli Qəhrəman, general-mayor Polad Həşimovun yanında dəfn olunub. Cəbrayıl Dövlətzadə Vətən müharibəsində göstərdiyi qəhrəmanlığına görə, ölümündən sonra “Vətən uğrunda” və “Azərbaycan bayrağı” ordenləri ilə təltif olunub.

Bu günlərdə qəhrəman hərbçimiz Cəbrayıl Dövlətzadənin anası Məleykə Məmmədzadə ilə əlaqə saxladıq. Qəhrəmanımızın anası qəzetimizə oğlu ilə bağlı xatirələrindən danışdı.

### “Allah elə bil ki, onu bu dünya üçün yaratmamışdı”

“11 ildir ki, həyat yoldaşımdan ayrılmışam. Elə həmin vaxtdan, yəni 8 yaşından Cəbrayıl özünü əsl kişi kimi, evimizin böyüyü kimi aparırdı. O, hələ kiçik yaşlarından ciddiliyi, təmkinli və səbrli olmağı ilə seçilirdi. Pəncərədən onu səsləməyimizi, evdə yersiz zarafatlar edilməsini heç sevməzdi. Yanında yanlış hərəkət edildiyi zaman isə ciddi bir baxışı yetərli idi ki, insan öz səhvini anlasın. Bütün işlərimi balam həll edirdi, nəyə ehtiyacım olurdusa, ona deyirdim. Mən övladımla dost olmuşam. Həyatda heç kimə demədiyim sirlərimi, dərdimi balamla bölüşmüşəm. O, mənim hər şeyim, bütün dünyam idi. Balamı itirməklə sanki qolumu-qanadımı itirdim. İnandırım sizi ki, Allah onu sanki bir mələk olaraq mənə bəxş etmişdi. Adı mələk, özü mələk balam... O, çox ürəyi təmiz, yardımsevər insan idi. Ən əsası da kiməsə köməklik edəndə heç vaxt gəlib onunla öyünməzdi. Sizi inandırım ki, bəlkə də dünyaya Cəbrayıl kimi övlad bir daha gəlməyəcək. Allah elə bil ki, onu bu dünya üçün yaratmamışdı. Hərdən hiss edirdim ki, o, bu dünyada çox yaşamayacaq. Çünki Cəbrayıl bu dünyaya yaraşan övlad deyildi. Ailəm, doğmalarım hər kəs bilir ki, Cəbrayıl mənim üçün bir dünya idi. Onun yerini heç kəs əvəz etməyəcək. Bu gün yeganə təsəllim balamın cənnətdə olmasıdır. Bu yeri isə Cəbrayıl özü qazandı”, - deyə Məleykə xanım qeyd edib.

Məleykə xanım deyir ki, övladının şəhidlik xəbərindən əvvəl əsgərlərimizdən birinin erməni generalını boğaraq öldürdüyü xəbərini eşidib. Həmin vaxt isə bu qəhrəmanlığın, onun övladının əl işi olduğundan xəbəri belə olmayıb:

“Eşidəndə ki, əsgərlərimizdən biri erməni polkovniklərini və generalını boğaraq öldürüb, dedim ki, halal olsun o əsgərə. Həmin vaxt onun mənim balam olduğunu və artıq həyatda olmadığını heç ağlıma belə gətirmirdim. Çünki o mənə demişdi ki, biz döyüşlərdə deyilik, təlim keçirik. Amma içimdə sanki bir narahatlıq vardı. Bu barədə mənim üçün danışmaq çox ağırdır. Həmin anları yenidən xatırlamaq istəmirəm. O hadisədən sonra nə qədər müalicələr alsam da, özümə gələ bilmirəm. Mənim oğlum qəhrəmandır. Məndə olan məlumatlara görə o, bu ağır döyüş əməliyyatına 11 nəfər zabitlə birgə yollanıb. Oğlum mərhum generalımız Polad Həşimovun şəhid olması xəbərindən çox təsirlənmişdi. Həmişə telefonla əlaqə saxlayanda Polad Həşimovun müsbət keyfiyyətlərindən danışırdı. Deyirdi ki, müharibə olsun, şəhidlərimizin və generalımızın qisasını alım. Arzusuna çatdı balam, söz verdiyi kimi, generalımızın qisasını aldı.

Mənim oğlum qumbaraatan idi. O, həmin silahla erməni generalının olduğu maşını partladıb. Həmin vaxt görüb ki, generalın papağı maşındadır, özləri isə qaçıblar. Həmin gecə hərbçi yoldaşları ilə birgə düşmənin yüksək rütbəli zabitlərinin olduğu kazarmaya daxil olub. O, komandirinin tapşırığını eşitməyərək irəli gedib. Hərbçi yoldaşlarına deyib ki, siz gəlməyin sizin ailəniz, yolunuzu gözləyən övladlarınız var, onlar yetim qalmasınlar, mən isə subayam, tək gedəcəyəm. Silahın səsi eşidilməsin deyə qarşısına çıxan erməni zabitlərini əlbəyaxa döyüş zamanı məhv edib. Zabit dostunun



dediklərinə görə içəriyə girdikdən sonra təkbaşına 11-ə yaxın erməni hərbçisini öldürüb. Onların arasında düşmənin iki polkovniki və bir generalı da olub. O, öz qolunun gücü ilə həmin generalı boğaraq öldürüb. Cəbrayıl bu əməliyyat zamanı aldığı güllə yaralarından sonra qanaxmadan şəhid olub. Cəbrayıl şəhid olduqdan sonra onun nəşini zabit dostu oradan çıxara biliblər. Mən fəxr edirəm ki, mənim belə qəhrəman, qorxubilməz oğlum olub. Bir tək ona görə rahatam ki, Cəbrayıl cənnətdədir, böyük bir zirvədədir. O heç vaxt silinməyən bir ad qoyub getdi, qəhrəmanlıq dastanı yazdı. Sorğusuz-sualsız cənnətə gedib mənim balam. Generalımız Polad Həşimovun qisasını aldı, qanını yerdə qoymadı. O, qəhrəman hərbçilərimizlə birgə itirilmiş torpaqlarımızı geri qaytardı, gözüyaşlı anabacılarımızın intiqamını aldı, məğrurluğumuzu özümüzə qaytardı”.

Məleykə xanım bizimlə söhbətində Polad Həşimovun anası Səmayə xanımla görüşündən də danışdı. Dəfələrdə Polad Həşimovun anası ilə görüşdüyünü deyən Məleykə xanım, daim şəhid generalımızın anası ilə telefonla əlaqə saxladığını, dərdlərini bölüşdüyünü dilə gətirib. Cəbrayılın Polad Həşimovun qisasını alandan sonra Səmayə xanımın qardaşının onlara gələrək, başsağlığı verib təşəkkür etdiyini deyən Məleykə xanım, daha sonra Səmayə xanımın dəvəti ilə onlara iftar süfrəsinə çağrılmasını da qeyd edib.

### “İdmançı keyfiyyətləri Cəbrayıla erməni hərbçiləri ilə əlbəyaxa döyüşdə çox böyük kömək oldu”

Məleykə xanımın sözlərinə görə, Cəbrayılın çox hobbiləri olub. O, gitarada ifa edir, gözəl rəsm çəkir, şeir yazır, mahnı ifa edirdi. Hətta sözləri özünə məxsus olan dörd repin müəllifidir. “Balamın idmana da böyük marağı olub. 9 il cüdo idman növü ilə məşğul olub, bu idman növünün sirlərinə yiyələnib. O, bundan başqa bir müddət boksla da məşğul olub. Cüdo üzrə müxtəlif yarışlarda qızıl və gümüş medallar belə qazanıb. Həmin vaxtlar oğlum ölkə ərazisində keçirilən yarışlarda iştirak edirdi. Ölkədən kənarda təşkil olunan beynəlxalq yarışlara göndərməyə isə maddi imkanımız yox idi. Cəbrayıl 17 yaşına kimi idmanla məşğul oldu. Elə bu idmançı keyfiyyətləri ona erməni hərbçiləri ilə əlbəyaxa döyüşdə çox böyük kömək oldu.

Oğlum daha sonra işləməyə və mənə kömək etməyə başladı. Cəbrayıl sırf ailəyə maddi baxımdan kömək etmək üçün peşəkar idmandan uzaqlaşdı. Amma yenə də buna baxmayaraq, o, idmanla qeyri-peşəkar şəkildə məşğul olmağa davam edirdi.

Qeyd edim ki, zəhmətə kiçik yaşlarından alışan balam 13 yaşından evə çörək pulu gətirməyə başlayıb. Yadıma gəlir ki, həmin vaxt mənim ayağım sınmışdı. Ailəyə kömək etmək üçün oğlum 3 aylıq yay tətilinin 2 ayını restoranda ofisiant işlədi. Artıq 17 yaşında Türkiyədə digər bir restoranda baş ofisiant işləməyə başladı. İnanın ki, Cəbrayıl orada özünə o qədər inam qazanmışdı ki, hətta restoranın sahibi seyfin açarını ona tərəddüd etmədən əmanət edirdi”, - deyə qəhrəmanımızın anası qeyd edib.

### “Balamın arzusunu yerinə yetirib kiçik bir motosiklet alıb, məzarına apardım”

Məleykə Məmmədzadə söhbət əsnasında oğlunun arzularına da toxundu. O, övladının ən çox qol saatlarına və motosikletə böyük həvəs göstərdiyini deyib:

“Onun qol saatlarına böyük marağı və sevgisi var idi. Buna görə də, balama hər zaman saat hədiyyə edirdim. Cəbrayılın böyük saat kolleksiyası vardı. Elə indi də onun bütün saatlarını təmir etdirib, bir araya toplamışam. Cəbrayılın ən böyük arzusu motosiklet almaq idi. Mənə deyirdi ki, hərbi xidmətdən qayıdandan sonra pul yığıb özümə motosiklet alacağam. Balamın arzusunu yerinə yetirib kiçik bir motosiklet alıb, məzarına apardım. Bundan başqa, o, hündür mərtəbəli binadan ev almaq istəyirdi. Hər zaman deyirdi ki, “istəyirəm hər kəsə hündürdən baxım. Yuxarıdan aşağıda olan insanların necə göründüyünü bilmək istəyirəm”. Balam arzusuna çatdı, göylərə ucaldı. İndi o ən yüksək qatdan insanlara baxır”.

Məleykə xanım tez-tez oğlunun yuxusuna gəldiyini və hər gəlişində onu yanında hiss etdiyini deyir.

“Şəhid olduqdan sonra Cəbrayılı yuxuda çox görmüşəm. Onu ilk dəfə isə şəhid olduqdan 12 gün sonra görmüşəm. Hətta bir neçə dəfə o qədər aydın şəkildə görmüşəm ki, yuxu olduğuna belə inanmırdım. Cəbrayılın bir xasiyyəti var idi ki, mən uzananda başımı qoluma qoyardı. Həmin vaxt bəzi problemlərim var idi. Yuxuda görürəm ki, Cəbrayıl ağ köynəkdə yanıma gəlib. Onu görüb ağlaya-ağlaya “sən də məni qoyub getdin, mən tək qaldım. Bütün işlərimi özüm həll edirəm”, - deyirdim. Başını qoluma qoyub mənə deyirdi ki, “Ana hər şey yaxşı olacaq, narahat olma. Sənə demişəm ki, ağlama, sənə ağlamaq yaraşmır”. Yuxudan oyananda balamın başını qoyduğu qolumun ağrıdığını hiss edirdim. Yəni Cəbrayıl həqiqətən də məni təsəlli etmək üçün yanıma gəlmişdi. Ümumiyyətlə, qeyd edim ki, özümü nə vaxt narahat hiss etsəm, hər hansısa bir problemim olsa hər zaman Cəbrayıl yuxuma gəlib, mənə təsəlli verir. Hətta bir dəfə yuxuda görmüşdüm ki, oğlan uşağı yıxılır və Cəbrayıl onu havada tutub yerə endirir. Növbəti gün kiçik oğlum “Aqua park”da hündürlükdən yerə yıxıldı. Amma oğlumun dediyinə görə, sanki kimsə onu havada tutub yerə endirdi. Oğlumu Allah saxlayıb, köməyə isə Cəbrayılı yollayıb. Yəni bir sözlə, dar günümüzdə, balam daim bizimlədir”.

Bu günlər onunla yanaşı, Vətən müharibəsində qanları ilə şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın şəhadətindən bir il ötür. Xalqımız qəhrəman hərbçilərimizin anım günündə onların xatirəsini yad edir, ruhuna dualar oxuyurlar.

Bu gün onunla yanaşı, bütün şəhidlərimizin ruhu şaddır. Çünki Müzəffər Ordumuz Qarabağı azad edərək, onun və bütün şəhidlərimizin qisasını aldı.

Bu qalibiyyətin dəyər və əhəmiyyəti isə gələcək tarix səhifələrində daha aydın görünəcək. Amma bu gerçək hər birimizə aydındır: Vətən müharibəsi haqq və şərəf mübarizəmizin şanlı salnaməsi kimi tarixə əbədi yazıldı.

Azərbaycan xalqı illərdir gözlədiyi, ruhunun təntənəsi olan qalibiyyəti yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də yad edir və əbədiyyən qəlbində yaşadacaq.

44 günlük Vətən müharibəsinin tarixinə general Polad Həşimovun qisasını alan qəhrəman kimi düşən igid əsgər, ruhun şad olsun!

*Azər Əlizadə,*
*Türkay Niftəliyeva*

# Yaponiyanın Şika şəhərinin meri ilə onlayn görüş

***Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Yaponiyanın Şika şəhərinin meri Koizumi Masaru ilə görüş keçirib. Onlayn formatda keçirilən görüşdə İ.Rəhimov Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarından əvvəl üzgüçülük üzrə milli komandanın üzvləri üçün yaradılmış şəraitə görə merə təşəkkür edib.***

Tokio-2020-nin Azərbaycanın Paralimpiya milli komandası üçün çox məhsuldar olduğunu vurğulayan İ.Rəhimov deyib: "İdmançılarımız əzmkarlıq nümayiş etdirərək 19 medal - 14 qızıl, 1 gümüş və 4 bürünc medal qazandılar. Komandamız 163 ölkə arasında Oyunları onuncu pillədə tamamladı. Üzgüçülük üzrə idmançılarımızın qələbəsində Şika şəhərinin öz yeri var. Yaradılan şəraitə və qonaqpərvərliyə görə merə və şəhər sakinlərinə dərin təşəkkürümü bildirirəm. Ümid edirəm ki, bizim aramızda yaranmış dostluq əlaqələri daha da inkişaf edəcək".

Koizumi Masaru yarışları izlədiyini və üzgüçülük üzrə fərqli kateqoriyalarda 4 qızıl medalın qazanılmasını möhtəşəm nəticə kimi dəyərləndirib. O, Azərbaycan milli Paralimpiya komandasını belə yüksək nailiyyətlərinə görə təbrik edib. Mer gələcəkdə əməkdaşlığın müxtəlif sahələrdə davam edəcəyinə əmin olduğunu vurğulayıb.

Görüşdə iştirak edən üzgüçü, üçqat Paralimpiya çempionu Raman Saleh, Tokio-2020-nin qalibi Vəli İsrafilov və yığmamızın ən gənc üzvü Dana Şandıbina yaradılmış şəraitə görə merə və şəhər sakinlərinə təşəkkürlərini bildiriblər.

Görüşdə Şika şəhərinin məktəbliləri də iştirak ediblər.

Qeyd edək ki, üzgüçülük üzrə milli komandamız "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarından əvvəl sonuncu təlim-məşq toplanışını Yaponiyanın Şika şəhərində keçirib və Oyunları 4 qızıl və yenilənmiş Paralimpiya rekordu ilə tamamlayıb.




***İzmirdə batut gimnastikası üzrə açıq Türkiyə çempionatı təşkil olunub. Yarışda Selcan Mahsudova, Maqsud Mahsudov, Hüseyn Abbasov, Mehdi Əliyev, İbrahim Mustafazadə və Ammar Baxşaliyev iştirak ediblər.***

# Azərbaycan batutçularından açıq Türkiyə çempionatında uğurlu nəticə

Böyüklər arasında çıxış edən S.Mahsudova qüsursuz çıxış nümayiş etdirərək birinci olub.

13-14 yaşlı gimnastlar arasında çıxış edən M.Mahsudov da birinciliyi əldən verməyərək, fəxri kürsünün ilk pilləsində yer alıb. Onunla eyni yaş qrupunda çıxış edən M.Əliyev finalda yeddinci olub.

M.Mahsudov, M.Əliyev və H.Abbasov 13-14 yaşlı gimnastlar arasında komanda hesabında gümüş medal qazanıblar.

Daha bir medalı isə A.Baxşaliyev qazanıb. Gimnastımız bu yarışda ikinci yerdə qərarlaşıb.

## "Grand Swiss" turnirində 6 şahmatçımız yarışacaq

Beynəlxalq Şahmat Federasiyası (FIDE) "Grand Swiss 2021" turnirinin iştirakçılarının adlarını açıqlayıb. Siyahıda Azərbaycanın 6 şahmatçısı var. Onların 5-i kişi, 1-i qadın qrossmeysterdir. Kişilərin mübarizəsində Şəhriyar Məmmədyarov, Qədir Hüseynov, Rauf Məmmədov, Nicat Abbasov və Vasif Durarbəyli qüvvəsini sınayacaq. Azərbaycanın turnirdəki yeganə qadın şahmatçısı isə Günay Məmmədzadədir. Qeyd edək ki, "Grand Swiss" turniri 25 oktyabr - 8 noyabrda Latviyanın paytaxtı Riqadakı "Hanzas Perons" Mədəniyyət Mərkəzində keçiriləcək.

## Vüqar Həşimov Şahmat Akademiyasının təşkilatçılığı ilə görüş keçirilib



Sentyabrın 30-da Vüqar Həşimov Şahmat Akademiyasının təşkilatçılığı ilə Xırdalandakı "5+" Tədris və İnkişaf Mərkəzində balacalarla görüş keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Akademiyanın ölkəmizdə şahmatın inkişafı sahəsində fəaliyyətini yüksək qiymətləndirən Mərkəzin rəhbəri Nənəxanım Əliyeva "Vüqar Həşimov" komandasının bir neçə gün əvvəl klublararası Avropa kuboku yarışlarında bürünc medal qazanması münasibətilə şahmatçıları təbrik edib. O, Akademiyanın ölkəmizdə şahmatın inkişafına verdiyi töhfələrin, eləcə də qazandığı uğurların idmansevərlər tərəfindən böyük maraq və sevinclə qarşılandığını vurğulayıb.

Mərhum qrossmeyster Vüqar Həşimovun bacısı Samirə Allahverdiyeva yüksək qonaqpərvərliyə görə Mərkəzin rəhbərliyinə minnətdarlığını bildirib, tanınmış şahmatçının qısa, lakin şərəfli idman karyerasından, qələbələrindən, Azərbaycanda gənc şahmatçıların yetişdirilməsi ilə bağlı arzularından danışıb. O, istedadlı şahmatçının adını daşıyan komandanın beynəlxalq arenada uğurlu çıxışı ilə ölkəmizin idman şərəfini layiqincə qorumaqla yanaşı, Vüqar Həşimovun şahmat irsini də geniş təbliğ etdiyini balacaların diqqətinə çatdırıb. S.Allahverdiyeva Azərbaycanda Beynəlxalq Şahmat Federasiyası (FIDE) tərəfindən qeydiyyata alınmış ilk şahmat akademiyası olan Vüqar Həşimov Şahmat Akademiyasının ölkəmizdə şahmatın kütləviliyinin artırılmasında, yeni-yeni istedadlı şahmatçıların yetişməsində mühüm rol oynadığını vurğulayıb, bu istiqamətdə görülən işlər barədə məlumat verib.

Mərhum qrossmeysterin bacısı balacaları Akademiyada yaradılmış Vüqar Həşimov Muzeyi ilə tanış olmağa dəvət edib. Sonra mərhum qrossmeyster Vüqar Həşimovdan bəhs edən videoçarx nümayiş olunub. Akademiyanın məşqçi-müəllimi Gülarə Müslümova balacalar üçün təqdimatla çıxış edib və ustad dərsi keçib. Daha sonra Mərkəzin balacaları arasında şahmat yarışı təşkil olunub. Sonda S.Allahverdiyeva Akademiyanın rəhbərliyi adından N.Əliyevaya xatirə hədiyyələri təqdim edib. Həmçinin "Vüqar Həşimov" komandasının Avropa kuboku yarışlarında qazandığı medal uşaqlara nümayiş olunub. Balacalar həmin mükafatla şəkillər çəkdiriblər. Balacaların suallarını cavablandıran qonaqlar onlara hədiyyələr təqdim ediblər.

# AMADA-nın hesabat jurnalı dərc edilib

***Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) şəffaflıq və hesabatlılıq prinsiplərinə sadiq qalaraq 2020-ci il üçün hesabat jurnalı dərc edib. Hesabatda qurumun ötən il ərzindəki fəaliyyətinə dair ətraflı məlumatlar yer alıb.***

Bildirilib ki, 2020-ci ildə COVID-19 pandemiyası dopinq nəzarəti sahəsinə də təsirini göstərib: "Pandemiyanın gətirdiyi məhdudiyyətlər və yaratdığı reallıqlar digər illərlə müqayisədə tamamilə yeni və fərqli şərait yaradıb. Elə buna görə də AMADA 2020-ci ildə fəaliyyətini pandemiyanın yaratdığı reallıqlar əsasında qurub, tətbiq olunan məhdudiyyətləri nəzərə alaraq fəaliyyətinin davamlılığını və effektivliyini təmin etmək üçün çevik qərarlar qəbul edib".

Qabaqcıl təcrübələrin və innovativ üsulların tətbiqinə hər zaman xüsusi əhəmiyyət verən AMADA-nın bu istiqamətdə fəaliyyətini daha da təkmilləşdirdiyi vurğulanıb: "Dopinq nəzarəti testlərinin götürülməsi prosesi idmançıların və nümunə toplama heyətinin təhlükəsizliyinin təmin olunması məqsədilə tələblərə tam uyğun həyata keçirilib. Dopinq nəzarətinin ən mühüm vasitələrindən olan antidopinq maarifləndirməsi əsasən distant üsulla olmaqla fasiləsiz təşkil edilib. Hesabat ilində maarifləndirmə işlərində Ümumdünya Antidopinq Məcəlləsinin tətbiqi ilə bağlı məsələlər xüsusi yer tutub və AMADA bununla bağlı üzərinə düşən öhdəlikləri əvvəlcədən hazırlanan mərhələli proqram əsasında tam və vaxtında icra edib".




2020-ci il ərzində AMADA-nın qlobal antidopinq hərəkatında da aktiv iştirak edərək bir sıra beynəlxalq layihələri uğurla həyata keçirdiyi, beynəlxalq tərəfdaşlarla keçirilən çoxsaylı görüşlər, imzalanan müqavilələrlə əməkdaşlığı daha da genişləndirdiyi qeyd olunub.

Bildirilib ki, ötən il Azərbaycan üçün həm də zəfər ili kimi tarixə düşüb: "AMADA Vətən müharibəsində əldə edilən böyük zəfərə kiçik də olsa, töhfə vermək üçün müxtəlif yardım və təbliğat tədbirləri həyata keçirib. Göründüyü kimi, 2020-ci il dünya və Azərbaycan üçün mənfi və müsbət hadisələri ilə yaddaqalan və fərqli olub. AMADA bu il ərzindəki fəaliyyətində innovativ və qabaqcıl yanaşmaları tətbiq edərək fərq yaratmağa çalışıb. Elə buna görə də 2020-ci ilin yekunlarına həsr olunmuş hesabat "Fərqli" adlandırılıb".

Qeyd edək ki, AMADA-nın fəaliyyəti ilə bağlı ətraflı və təfərrüatlı məlumatların yer aldığı hesabat jurnalının elektron versiyası Azərbaycan və ingilis dillərində AMADA-nın rəsmi internet saytında yerləşdirilib.

## Dünya çempionatına Türkiyə ev sahibliyi edəcək



Qadınlar arasında boks üzrə dünya çempionatının yeri və vaxtı müəyyənləşib. Yarış dekabrın əvvəlində Türkiyənin İstanbul şəhərində keçiriləcək. Dəqiq tarixlər daha sonra açıqlanacaq.

AİBA prezidenti Umar Kremlev mükafat fondunun kişilərin turniri ilə eyni olacağını bildirib: "Mundialın mükafat fondu 2,6 milyon ABŞ dolları. Birinci yerin sahibi 100 min, gümüş medalçılar 50 min, bürünc medal qazanan boksçu isə 25 min dollar əldə edəcək".

Qeyd edək ki, kişilər arasında dünya çempionatı oktyabrın 24-dən noyabrın 6-dək Serbiyanın paytaxtı Belqradda təşkil olunacaq.



# "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi Gədəbəydə

AFFA-nın və Gədəbəy Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi üzrə növbəti tədbir keçirilib. Gədəbəy rayonunun Novosaratovka kəndində keçirilən tədbirdə ümumilikdə 50 məktəbli uşağa futbola marağı artırmaq məqsədi ilə idman geyimləri və futbol topları verilib.

Bu layihə Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu ilin dekabrında Milli Olimpiya Komitəsində idmançılarla görüşü zamanı kəndlərdə idmanın inkişafına dair verdiyi tövsiyələrin yerinə yetirilməsi istiqamətində atılmış addımdır.

Tədbirdə AFFA-nın vitse-prezidenti, Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Natiq Nağıyev, deputatlar Arzu Nağıyev, Sabir Hacıyev və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Qeyd olunan layihə üzrə 2021-ci il ərzində respublikamızın müxtəlif bölgələrində yerli icra hakimiyyəti orqanları ilə birlikdə "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi üzrə tədbirlər keçirilib. Bu layihə üzrə tədbirlərin respublikamızın digər bölgələrində də həyata keçirilməsi nəzərdə tutulub.

## Anım gününə həsr olunmuş yeniyetmə və gənclər arasında şahmat turniri keçirilib

"Təhsil" Respublika İdman Mərkəzinin 4 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Şahmat Məktəbinin Anım gününə həsr olunmuş yeniyetmə və gənclər arasında şahmat turniri keçirilib. Turnir 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək 44 günlük Vətən müharibəsində həyatlarını itirən əziz şəhidlərin xatirəsini yad etmək, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasını təbliğ etmək məqsədi ilə keçirilib. Şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib və 44 günlük Vətən müharibəsində Müzəffər ordumuzun qazandığı uğurlardan, hərbçilərimizin şücaəti barədə yarış iştirakçılarına ətraflı məlumat verilib. Şahmat turniri əsasnaməyə uyğun olaraq İsveçrə sistemi ilə 9 turdan ibarət 5 qrupda keçirilib. Sentyabrın 13-21-də "Təhsil" Respublika İdman Mərkəzinin 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin turnir zalında kecirilən yarışda qaliblərin adlarına aydınlıq gəlib.



Turnirin A qrupunda 30 (24 oğlan, 4 qız) zəka sahibi iştirak edib. Yarışda birinci yeri Nihad Fərəcov, ikinci yeri Hüseyn Baxşıyev, üçüncü yeri isə Rəsul Dünyamalıyev tutub.

30 (23 oğlan, 7 qız) şahmatçının iştirak etdiyi B qrupunda isə qalib adını Fərəc Fərəcov qazanıb. Yusif Məmmədli ikinci, Rza Kərimov isə üçüncü yerə sahib çıxıb.

Turnirin C qrupunda 39 (31 oğlan, 8 qız) zəka sahibi yarışıb. Gərgin mübarizə şəraitində keçən yarışda Talib Tağıyev birinci yerə layiq görülüb. Kənan Şirinov ikinci, İbrahim Abbasov isə üçüncü olub.

28 (25 oğlan, 3 qız) şahmatçının mübarizə apardığı D qrupunda ilk üçlükdə Cahid Mura, Vaqif Həmzəyev, Xalid Suleymanov yer alıb.

Turnirin E qrupunda isə 26 (25 oğlan, 1 qız) zəka sahibi iştirak edib. Onlardan Əhməd Hüseynov bütün rəqiblərini üstələyərək çempion adını qazanıb. Suat İbrahimli və Rəşad Qənizadə isə müvafiq olaraq, ikinci, üçüncü yerləri tutublar.

Mükafatalayiq yerlər tutan şahmatçılar diplom, medal, kubok və xatirə hədiyyələri ilə təltif olunublar.

* * *

"Təhsil" Respublika İdman Mərkəzinin 4 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Şahmat Məktəbinin Anım gününə həsr olunmuş yeniyetmə və gənclər arasında "Play Ok" saytı üzərindən onlayn formatda dama üzrə açıq turniri keçirilib. Turnir 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək 44 günlük Vətən müharibəsində həyatlarını itirən əziz şəhidlərin xatirəsini yad etmək, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasını təbliğ etmək məqsədi ilə keçirilib. Turnirdə Bakı və respublikanın digər şəhər və rayonlarından 55 damaçı iştirak edib.

Oğlanlar arsında birinci yerə Asif Aşurov layiq görülüb. Rəvan Aslanov ikinci, Adil Şahbazov isə üçüncü yerə sahib çıxıb. Qızlar arsında isə Nərmin Nəbiyeva fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Nazlı Quliyeva ikinci, Fatimə Quliyeva isə üçüncü yeri tutub.

Mükafatalayiq yerlər tutan damaçılar diplom, medal və xatirə hədiyyələri ilə təltif olunublar.

# İdman Akademiyasının tələbələri Yay Olimpiya Oyunlarında böyük uğurlar əldə ediblər



*Dilqəm Quliyev, pedaqogika üzrə elmlər doktoru, professor*

***1951-ci ildə SSRİ-də Olimpiya Komitəsi yaranıb. Qurum tezliklə BOK-un üzvlüyünə qəbul edilib. Bundan sonra Sovet idmançıları Olimpiya Oyunlarına buraxılıblar. SSRİ yığma komandasının tərkibində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbə və məzunlarının da mübarizəyə qoşulmaq imkanı əldə ediblər.***

***XV Olimpiya Oyunlarından başlayaraq bu mötəbər yarışlarda iştirak edərək yüksək nailiyyətlər qazanıblar.***




Sovet atletləri ilk dəfə 1952-ci il iyul ayının 19-dan avqustun 3-ə kimi Finlandiyanın paytaxtı Helsinki şəhərində olmuşdur. Olimpiadanın proqramına idmanın 18 növü daxil edilmişdi. XV Olimpiya Oyunları Olimpiya tarixində misli görünməmiş bir iz buraxdı. Bu Olimpiya oyunlarında 69 ölkədən 4925 nəfər idmançı 149 dəst medal uğrunda mübarizə aparmışdı. Sevindirici haldır ki, idmançıların Olimpiya Oyunlarında qazandıqları nailiyyətlərdə idman akademiyasının tələbə və məzunlarının da əməyi vardır.

Nümayəndə heyətinin tərkibində idman akademiyasının tələbə və məzunlarından IV kurs tələbəsi sərbəst güləşçilərimiz-Rəşid Məmmədbəyov (yüngül çəki), İbrahimpaşa Dadaşov və yüngül atlet (uzununa tullanma) Xandadaş Mədətov var idi. Rəşid Məmmədbəyov 1952-ci ildə XV Olimpiya Oyunlarında gümüş medala layiq görülmüşdür.




XVI Olimpiya oyunları 1956-cı il noyabr ayının 22-dən dekabrın 8-nə kimi Avstraliyanın Melburn şəhərində olmuşdur. XVI Olimpiya Oyunlarında 67 ölkədən 3342 iştirakçı 18 idman növü üzrə 145 dəst medal uğrunda mübarizəyə qoşulmuşdu. İdman akademiyasının məzunu Yuri Konovalov-XVI Yay Olimpiya Oyunlarının 4x100 m estafet qaçışında gümüş mükafata layiq görülmüşdür.




1960-cı il İtaliyanın Roma şəhərində XVII Olimpiya oyunlarında 83 ölkənin 5348 idmançısı iştirak etmişdir. Bu Olimpiya oyunlarında idman akademiyasının tələbə və məzunları şərəfli qələbə qazandılar. 18 idman növü üzrə 150 dəst medal uğrunda mübarizəyə həmin olimpiadada SSRİ-nin tərkibində üç nəfər atlet-Yuri Konovalov, vaterpolçu Yevgeni Saltsin və idman akademiyasının yetirməsi basketbolçu Aleksandr Petrov da qoşulmuşdu. 31 yaşlı vaterpolçu Y.Saltsin komanda heyətində gümüş medal əldə etdi. Yevgeni Saltsin 1960-ci il XVII-Roma Olimpiya Oyunlarının gümüş mükafatçısıdır. XVII-Roma Olimpiya Oyunlarının Y.Konovalov əsasən, 4x100 m məsafələrə estafet yarışlarında mübarizə aparmışdır. O, məşqçilərin ümidini doğrultmuş və Olimpiya Oyunlarının gümüş medalını qazanmışdır.




XVIII Olimpiya Oyunları 1964-cü ildə oktyabr ayının 10-dan 24-nə kimi Yaponiyanın paytaxtı Tokio şəhərində təşkil edilib. Asiyada keçirilən olimpiadada 94 ölkənin 5140 idmançısı 20 idman növü üzrə 163 dəst medal uğrunda mübarizə aparmışdı. Statistikaya nəzər salsaq görərik ki, Romada 9 sosialist ölkəsinin idmançıları 172 medal və 1200 xal qazanmışdılar. Tokioda isə 10 sosialist ölkəsinin idmançıları 196 medal və 1344,8 xal qazandılar. İdman akademiyasının yetirməsi Viktor Mineyev XVIII Yay Olimpiya Oyunlarının çempionu olmuşdur. Tokio Olimpiadasında Azərbaycan idmançılarının tərkibi daha mötəbər oldu. Ən böyük müvəffəqiyyəti beşnövçü Viktor Mineyev qazandı. İdman akademiyasının yetirmələri şəxsi hesabda beşinci, komanda birinciliyində isə İ.Novikov və A.Makayev ilə birlikdə güclü rəqibləri, macarları geridə qoymuş və 141,961 xalla birinci yeri tutmuşdular. İdman akademiyasının daha bir yetirməsi İnna Rıskal qadınlardan ibarət voleybol komandasında çıxış etmişdi. Voleybolçularımız yalnız finalda ev sahiblərinə uduzaraq, gümüş medalla kifayətlənmişdilər.

İdman akademiyasının yetirmələri Aydın İbrahimov 1964-cü ildə XVIII Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı olmuşdur. Nikolay Kuznetsov və Zenon Bortkeviç respublikamızı vaterpol yarışlarında təmsil etmişdilər. Onlar Olimpiadadan bürünc medalla qayıtmışdılar.

XVIII Tokio (1964) (Yaponiya)Yay Olimpiya Oyunlarında iştirak edən idmançıların beşi də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunları olmuşlar.




XIX Olimpiya Oyunları 1968-ci il oktyabrın 12-dən 27-nə kimi Meksikanın paytaxtı Mexiko şəhərində olmuşdur. Mexiko Olimpiadasında 112 ölkənin 5531 idmançısı 19 idman növü üzrə 172 dəst medal uğrunda mübarizəyə toplanmışdı.

XIX Olimpiya Oyunlarında idman akademiyasının üç nümayəndəsi-İnna Rıskal, Vera Lantratova (voleybol) və suya tullanan Nadejda Karpuxina çıxış etdilər. Voleybolçularımız turniri birinci yerlə başa vurub qızıl medallar qazandılar. Sovet komandası Yaponiya idmançıları ilə həlledici görüşdə əla oyun göstərərək, 3:1 hesabı ilə qalib gəldi. İnna Rıskal ən yaxşı oyunçu hesab olundu. Vera Lantratova Mexiko şəhərində keçirilən XIX Yay Olimpiya Oyunlarının qızıl medalçısı olmuşdur.

XX Olimpiya Oyunları 1972-ci ilin avqustun 26-dan sentyabın 11-nə kimi Almaniya Federativ Respublikasının Münhen şəhərində olmuşdur. Burada 121 ölkənin 7123 idmançısı 22 idman növü üzrə 205 dəst medal uğrunda mübarizədə iştirak edirdi. Bu Olimpiadada Sovet idmançıları qalib gəlmişdilər. Onlar 50 qızıl, 27 gümüş, 22 bürünc medal qazanmışdılar. Bu qədər qızıl medalı hələ heç bir komanda Olimpiya Oyunlarında qazanmamışdı. Bizim üçün də bu sevindirici hal idi. Belə ki, idman akademiyasının üç idmançısı XX Olimpiya Oyunlarını təmsil edirdi. Bunlardan İ.Rıskal (voleybol), qısa məsafələrə qaçan Aleksandr Kornelyuk və üzgüçü Vladimir Krivtsov iştirak etmişdir. A.Kornelyuk 4x100 (24 komanda arasında) məsafəyə estafet qaçışında V.Lovecki, Y.Silov, V.Borzov ilə birlikdə 38,50 san. nəticə göstərərək, gümüş medala sahib çıxmışdır.




Olimpiadada voleybol üzrə finalda SSRİ-Yaponiya komandaları görüşmüşlər. Qızlarımız çətin qələbə qazandılar-3:2. İ.Rıskal ikiqat Olimpiya çempionu oldu.




XXI Olimpiya Oyunları 1976-cı il iyul ayının 17-dən avqustun 1-nə kimi Kanadanın Monreal şəhərində olmuşdur. Burada 92 ölkənin 6028 idmançısı 25 idman növü üzrə 198 dəst medal uğrunda mübarizədə iştirak edirdi. XXI Olimpiya Oyunlarında SSRİ yığma komandasında idman akademiyasının idmançıları - İnna Rıskal (voleybol), həndbolçular Rəfiqə Şabanova, Lyudmila Şubina çıxış edirdilər. Bu, İ.Rıskalın olimpiadalarda dördüncü startı idi. Voleybolçu qadınlarımız uğurla çıxış edərək finala çıxmışlar. Finalda yaponlara uduzaraq, Olimpiya Oyunlarının gümüş mükafatçısı oldular. Lyudmila Şubina və Rəfiqə Şabanova həndbol yığma komanda tərkibində Olimpiya çempionu oldu.




XXII Olimpiya Oyunları 1980-ci ildə iyulun 19-dan 3 avqusta kimi Moskva şəhərində olmuşdur. Burada 80 ölkənin 5217 idmançısı (onlardan da 1134-ü qadın idi) 21 idman növü üzrə 203 dəst medal uğrunda mübarizə aparmışdır.

İdman akademiyasının yetirmələrindən Larisa Savkina 1980-ci ildə XXII Moskva Yay Olimpiya Oyunlarının çempionu olmuşdur.

XXII Olimpiya Oyunlarında İdman akademiyasının idmançılarından həndbolçu Larisa Savkina qızıl, hokkeyçi Tatyana Şviqanova bürünc, avarçəkənlər Vasili Yakuşa, Viktor Pereverzev, Gennadi Kryuçkin gümüş medal əldə etdilər. Bu idman akademiyası yetirmələrinin böyük müvəffəqiyyəti idi.

Otüstü hokkey Olimpiya Oyunlarının proqramına ilk dəfə salınmasına baxmayaraq, idman akademiyasının məzunu Tatyana Şviqanovanın bürünc mükafatı Azərbaycanda idmanın bu növünün inkişafına müsbət təsir göstərdi.

XXIV Olimpiya Oyunları idman akademiyasının idmançıları üçün də valehedici olmuşdur. SSRİ yığma komandasının tərkibində Seula gedən idman akademiyasının 19 yetirməsi ümumi komandada qələbəyə layiqli töhvə vermişlər.

Onlar yarış meydanlarında 3 qızıl, 1 gümüş və 2 bürünc medal qazanaraq olimpiadalar tarixində ən yüksək nəticə göstərmişlər.

Futbolçu İqor Ponomaryov, qılıncoynadan İlqar Məmmədov və Boris Koretski ilk dəfə olimpiadanın ən yüksək mükafatına-qızıl medala layiq görüldülər. Avarçəkənlərdən Vasili Yakuşa iki nəfərlik qayıqsürmə yarışlarında bürünc medal, Aleksandr Lukyanov isə 8 nəfərlik heyətin tərkibində gümüş medal qazanmışlar. Həndbolçu qızlarımızdan Elina Quseva bürünc medal əldə etmişdi. Tennisçi V.Popova isə fəxri VI yeri tutmuşdu.

*(ardı var)*

Müsahibə

# Sahib Rzayev: "Azərbaycan idmanında yeni nəsil formalaşmalıdır"

## "Karateçilərimiz Yaponiya paytaxtında yüksək nəticə nümayiş etdirdilər"

***Karate idman növü bütün dünyada böyük nüfuz qazanıb. Şərq-əlbəyaxa döyüş növü olmasına baxmayaraq, planetin hər bir yerində bu idman növü ilə məşğul olan minlərlə idmançıya rast gəlmək olur. Şübhəsiz ki, karate ölkəmizdə sevilir. Böyük ənənələri olan bu idman növündə neçə-neçə adlı-sanlı idmançılarımız yetişib. Onlar iştirak etdikləri mötəbər yarışlarda Azərbaycanı layiqincə təmsil ediblər. Bir vaxtlar yarış meydanlarında öz bacarığını nümayiş etdirən karateçilərimiz indi təcrübəli mütəxəssis kimi yeni idmançı nəslinin yetişməsində öz töhfələrini verirlər. Belə mütəxəssislərdən biri də Sahib Rzayevdir. Onun qazandığı nailiyyətlərə nəzər salanda görürük ki, ölkəmizdə necə güclü mütəxəssislər fəaliyyət göstərir. Əməkdar məşqçi, Əməkdar idman ustası, 7-ci dan, beynəlxalq dərəcəli hakim, ikiqat dünya mükafatçısı, ikiqat Avropa çempionu, dünya kubokunun, Açıq Amerika çempionatının qalibi olan Sahib Rzayev hazırda Milli Karate Federasiyasının Gəncə regional şöbəsinin sədridir. "Olimpiya dünyası" qəzetinin qonağı olan müsahibimizlə səmimi söhbəti geniş oxucu kütləsinə təqdim edirik.***



***- Sahib müəllim, uzun illərdir karatenin Gəncə və ətraf rayonlar üzrə inkişafında əsas vəzifə sizə həvalə olunub. Bildiyimizə görə bu işin öhdəsindən uğurla gəlirsiniz. Bu barədə oxucularımıza məlumat verərdiniz.***

- Mən Milli Karate Federasiyasının Gəncə regional şöbəsinin sədriyəm. Bizim regional şöbəmiz uzun müddətdir ki, bu idman növünün inkişafı üçün böyük işlər görür. Regionda seminarlar, texniki imtahanlar təşkil edirik. Hakimlərin yetişdirilməsi üçün bütün təcrübə və bacarıqlarımızı sərf etmişik. Vaxtaşırı olaraq idmançıların yarış təcrübələrini artırmaq üçün şəhər çempionatları keçiririk. Şəmkir, Qazax, Tovuz, Ağcabədi, Bərdə şəhərlərinin idman klublarını bu yarışlara cəlb edirik. İl ərzində bir neçə dəfə uşaqlar, yeniyetmələr və gənclər arasında Gəncə kuboku adlı beynəlxalq turnir təşkil edirik. Əsas vəzifəmiz bölgədə karatenin inkişafını artırmaq, geniş təbliğinə nail olmaqdır. Çünki bu idman növü birbaşa döyüş idman növüdür. Bu döyüş sənəti təbliğ olunmalıdır. Əgər yeniyetmə və gənclər indidən fiziki hazırlıqlı olmasa, onlar necə əsgər olacaqlar? Biz müharibədə qalib gəldik. Müharibəni xüsusi hazırlıqlı cəsur əsgərlərimizin sayəsində qazandıq. Yeri gəlmişkən, Vətən uğrunda canını fəda edən və qazi olan əsgərlər arasında mənim tələbələrim də var idi. Tərəfimizdən təqvimdə olan əlamətdar günlərə həsr olunmuş yarışlar böyük təntənə ilə təşkil olunur. Çalışırıq ki, gənc nəsli həm fiziki və həm də mənəvi cəhətdən formalaşdıraq. Burada həm valideynlər, həm də məşqçilərin rolu az deyil.

***- Yığma komandanın heyətində sizin bölgənin idmançılarına da rast gəlirik.***

- Bəli. Bizim bölgəni təmsil edən karateçilər respublika yarışlarında iştirak edərək, yüksək nəticələr göstərirlər. Onlar yığma komandaların tərkibinə dəvət alırlar. Qazax rayonunun uşaq və yeniyetmələrdən ibarət kata komandası beynəlxalq yarışlarda nəticələr verirlər. Ağcabədi və Bərdə idmançıları respublika yığma komandalarının da üzvüdürlər. Onlar beynəlxalq yarışlarda ümidləri doğruldurlar. Hətta yığma komandanın baş məşqçisi Qurban Tağıyev Gəncədəndir. Biz yarışları bölgədəki idman idarələrinin rəhbəri ilə razılaşdırıb, təşkil edirik. Qoy idman idarəsi bunu bilsin və işimizi birlikdə təşkil edək. Həmin qurumlar işimizdən xəbərdardır. Nəticələrimiz göstərir ki, biz idmanın içindəyik.

Gördüyümüz işlər dövlətimizin idman siyasətinə bir dəstəkdir. Artıq gənclər və idman nazirliyinə yeni rəhbər təyin olunub. Yeni nazir Fərid Qayıbova yeni işində uğurlar diləyirik. İnanırıq ki, onun rəhbərliyi altında idmanda yeni uğurlar əldə olunacaq. Yeni nazirin, yeni iş strukturunda yardım və dəstəyimiz vacibdir. Bizim işimiz gəncləri idmana cəlb olunmasında vasitəçi olmaqdır. Artıq Azərbaycan idmanında yeni nəsil formalaşmalıdır.

***- Gəncədə fəaliyyət göstərən "Syoqun" idman klubunda təkcə karateçilər məşq edirlər?***




Məlumat üçün bildirim ki, "Syoqun" idman klubu 1996-cı ildən yaranıb. Klubun yaradıcısı özüməm. Klubumuzda bir neçə dəfə təmir işləri aparmışıq. Hazırda klubdan Karate Federasiyasının maddi-texniki bazası kimi bölgədə istifadə edirik. Təlim-məşq toplanışlarını orada keçiririk. Klubda 2 kikboksinq, 2 MMA bölməsi və 3 boks bölməsi fəaliyyət göstərir.

Biz beynəlxalq yarışlara öz klubumuzun adından, öz hesabımızdan karate və taekvondo bölmələrindən həmişə komandalar göndərmişik. Peşəkar boks yarışlarına da 2 idmançı yollamışıq. Belə ki, bu ilin sentyabr ayında Türkiyədə təşkil olunan beynəlxalq yarışda Şahlar Nağıyev (75 kq) və Orxan Abdiyev (+100 kq) iştirak edib.

Bir müddət əvvəl klubumuzu yenidən təmir etdik. Açılış mərasiminə Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov da gəlmişdi. O da bizimlə görüşdü, yeni işlərimizdə bizə uğurlar dilədi. Qeyd edim ki, COVİD-19 pandemiyası bizim də fəaliyyətimizə az təsir etmədi. Lakin iyun ayının 17-dən işimizi və məşq prosesimizi davam etdirdik.

***- Pandemiyadan söz düşmüşkən, həmin müddətdə yaranan fasilə fəliyyətinizə necə təsir etdi?***

- Biz həmin ərəfələrdə nəticə verən idmançıları nəzarətsiz qoymadıq. Məşqçilərin və özümüzün rəhbərliyimiz altında ev şəraitində hazırlıqlarına onlayn nəzarət edirik. Yemək rasionlarını diqqətdə saxlayırdıq. Düzdür, pandemiya hələ bitməyib. Xüsusi karantin qaydaları hələ də qüvvədədir. İdman zallarında məşqlər keçirilməsinə icazə verilsə də, diqqətli olmalıyıq. Yenə də idman zallarını doldurmaq olmaz. Çünki qaydalar verilib ki, bir idmançı üçün 4 m² məsafədə bir-birindən aralıda olsun. Yəni texniki hərəkətlər etdikdə mütləq məsafə nəzərə alsın. Bununla da biz paralel zalda gigienik normaların təmin olunmasına nəzarət edirik. Uşaqların, valideyinlərin, məşqçilərin vaksinasiya olunmasını nəzarətimizdə saxlayırıq. Məşqçilərlə müqaviləmizdə COVİD pasportunun surətinin bizdə olmasını qeyd etmişik. Girişdə maarifləndirici lövhələr asmışıq, tibbi spirtdən, gigienik vasitələrdən istifadə edirik. Zalın və soyunub-geyinmə otağının, sanuzer otağının təmizliyini də qoruyub saxlıyırıq.

***- İdmançıların məşq prosesini necə bərpa etməyə çalışırsınız?***

- Təxminən il yarım idi ki, uşaqlar evdə oturmuşdular. Artıq hərəkətsizlikdən çıxıblar. Bütün bunların yenidən bərpası üçün birdən-birə onları yükləmək olmaz. İdmançılar xəsarət ala bilərlər. Daxili orqanları zədələnə, vətərlər qırıla bilər. Ona görə də ehtiyatlı davranmalıyıq. Lakin idmançının yenidən forma yığması üçün mütləq bizə zaman lazımdır. İdmançıları bu yükləmədən azad etmək üçün bir günlük məşqləri iki hissəyə bölürük. Bir saat səhər, bir saat axşam. Bu qaydalar yeni gələn uşaqlara aid deyil. Bu qaydalar hazırlıqlı idmançılar üçün tətbiq edilib. O, istirahətini edərək məşq edəcək və zərbə almayacaq. Hər gün



məşq etdikdə əzələ yorulur. Bu qaydaların tətbiqindən sonra mən artıq nəticəsini görürəm. Uşaqlar yenidən formalarını yığmağa başlayıblar. İki saatlıq məşqin yekununda uşaq yorulurdu, istədiyimizi ala bilmirdik. Məcburiyyət qarşısında məşqləri iki yerə bölməli olduq. Səhər və günorta. Bu qayda artıq nəticə verdi. Bu qaydaları digər idman növlərində də tətbiq etmək lazımdır.

***- Sahib müəllim, Olimpiya Oyunlarında ilk dəfə olaraq karateçilər üçün şans yarandı. Oyunlarda karate özünü doğrulda bildimi?***

- Mən belə düşünürəm ki, ümumiyyətlə, karate dünyada ən məşhur idman növüdür. Bu idman növü özünün nizam-intizamı, dinamikası, özünəməxsus hərəkətləri ilə çox məşhurdur. Bu idman növünə də digər idman növləri ilə bərabər karate idman növünə də yarış və hakimlik qaydaları şamil olunur. Beləliklə, karate idman növü Olimpiya Oyunlarına ona görə salındı ki, kütlə üçün baxımlı olsun. Humanizm nəzərə alınsın, zədələrin qarşısı alınsın. Ona görə də qaydalarda həmişə yeniliklər edib, təkmilləşdirmək lazımdır. Karate idman növü onsuz da Beynəlxalq Olimpiya Komitəsi tərəfindən rəsmi olaraq tanınıb. Qitələr üzrə keçirilən mötəbər yarışlarda karate seçilmiş idman növlərindən biri sayılır.

***- Azərbaycan karateçilərinin Tokio-2020-də çıxışlarını necə dəyərləndirirsiniz?***

- Bizim karateçilərimiz Yaponiya paytaxtında yüksək nəticə nümayiş etdirdilər. Lakin təəssüflər olsun ki, yenə də ortada hakim amili çempionluq üçün ciddi maneə oldu. Rafael Ağayevə qarşı haqsızlıqlar oldu. Hakimlərin nəticələrin hesablanmasında bir sıra səhflərə yol verdilər. Olimpiya Oyunları çox məsuliyyətlidir. Mən özüm beynəlxalq dərəcəli hakiməm. Hakimləri də başa düşmək olar. Lakin azarkeş bunu çox vaxt qəbul etmir. Qərarları səhv kimi görən tamaşaçı nəticədə karateyə fərqli yanaşmağa başlayır. Görüşlərin birində iranlı idmançı afrikalı rəqibini vurdu. Hakim ona hesab açmaq əvəzinə qələbə verdi. Qaydalara görə əslində, ona yıxıldığına görə hesab açılmalı idi. İranlı karateçi yarışı davam etdirə bilmədiyinə görə, digər idmançı kontakta və güclü zərbəyə görə cəzalanmalı idi. Lakin düzgün olmadı. İnsanlar bunu birmənalı qarşılamadılar. Yəqin ki, hakim qaydalarında bir qədər də dəyişikliklər aparılacaq. Çünki Los-Ancelesdə keçiriləcək Olimpiya Oyunlarında karate idman növü proqramda yer alıb.

Qızıl medal qazana bilməsək də buna çox yaxın idik. Amma bilirsiniz ilk dəfədir ki, karate Olimpiya Oyunlarına qatılır. Bu da böyük məsuliyyətdir. Azərbaycan balaca dövlət olsa da, olimpiadada bu növdə 2 gümüş medal əldə etdi. Rusiya, ABŞ və Fransa kimi ölkələr karate idman növündən bir medal belə qazanmadı.

***- İrina Zaretskanın çıxışı daha gərgin keçdi. Rəqibi barəsində nə deyərdiniz?***

- İrina dünya və Avropa çempionumuzdur. O istənilən mötəbər yarışın əsas favoritidir. Lakin Tokioda finalda o, misirli Faryal Abdelazizlə qarşılaşdı. Çoxları həmin idmançını tanımırlar. Lakin qeyd edim ki, Misir idmançıları həmişə karatedə liderlərdən biri olublar. Finalda asan rəqib olmur. Görünür, idman şansı rəqibin tərəfində oldu. Cəmi 2 xal döyüşün və çempionluğun müqəddəratını həll etdi. Bu hələ son deyil. Azərbaycan karatesi hələ qarşıdakı illərdə daha böyük nailiyyətlərə imza atacaq. Federasiya rəhbərliyinin yorulmaz fəaliyyəti, bu idman növünə olan maraq və diqqət sayəsində bizi yeni qələbələr gözləyir.

***Anar Əhmədov***

# FUTBOL



## AFFA-nın icraçı vitse-prezidenti bölgələrə səfər edib

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov Şəkidə müxtəlif yaş qruplarından ibarət komandalarda məşq edən uşaqlarla görüşüb. E.Məmmədov uşaqlara AFFA-nın adından oyun geyimləri və top təqdim edib. İcraçı vitse-prezident futbolçularla söhbətləşib, növbəti həftə liqalarda iştirak edəcək oyunçulara uğurlar arzulayıb. Görüşün sonunda simvolik olaraq oyun keçirilib.

* * *

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov və İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov İsmayıllıda süni örtüklü meydança inşa olunması üçün münasib ərazilərə baxış keçiriblər.

Müvafiq ərazidə yaxın zamanlarda AFFA tərəfindən iki ədəd süni örtüklü meydançanın inşa olunacağı müəyyənləşdirilib. Bundan başqa, AFFA və icra hakimiyyəti rəhbərliyi arasında müzakirələrdən sonra Region Liqası turnirində cari mövsümdən etibarən İsmayıllı rayonunu təmsil edən komandanın çıxış etməsi barədə razılıq əldə olunub.

* * *

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov "Qəbələ" Futbol Akademiyasında olub. İcraçı vitse-prezident "Qəbələ" idman klubunun prezidenti Fariz Nəcəfovla birlikdə akademiyada hazırlıq keçən uşaqlarla görüşüb. "Qəbələ" Futbol Akademiyasının fəaliyyətini yüksək qiymətləndirən E.Məmmədov yaradılan şəraitə görə klub rəhbərliyinə minnətdarlığını bildirib. Görüş çərçivəsində akademiyanın gələcək fəaliyyəti və futbolun inkişafı istiqamətində atılacaq addımlar müzakirə olunub. Xatırladaq ki, "Qəbələ" klubunun Premyer Liqada çıxışı və akademiyanın fəaliyyəti ilə bağlı mövsümün əvvəlində AFFA tərəfindən kluba maliyyə yardımı göstərilib.

## Mahir Emreli 2021-ci ildə ən çox qol vuran futbolçuların siyahısında




Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) 2021-ci ildə ən çox qol vuran futbolçuların siyahısını açıqlayıb. Siyahıda Polşanın "Legiya" klubunda çıxış edən azərbaycanlı hücumçu Mahir Emreli də yer alıb. O, bu il "Qarabağ"la 13, "Legiya" ilə isə 10 qol vurub. Futbolçu 23 qolla siyahının 44-cü pilləsində qərarlaşıb. 56 oyunçunun yer aldığı siyahıda M.Emreli "Latsio"dan Çiro İmmobileni, "Atletiko"dan Antuan Qrizmannı qabaqlayıb. 2021-ci ildə ən çox qol vuran futbolçu "Bayern"in hücumçusu Robert Levandovskidir. Polşalı oyunçu 50 qola imza atıb.

* * *

Böyük Britaniyanın nüfuzlu "The Sun" nəşri ötən gün Avropa Liqası turnirində "Legiya" klubunun "Lester Siti" üzərində qazandığı qələbənin səbəbkarı olan millimizin hücumçusu Mahir Emrelini fotosunu qəzetin manşetinə çıxarıb. Xəbərdə Polşanın "Legiya" klubunun İngiltərə klubu üzərində qazandığı nəticənin həkk olunduğu köynəyi satışa çıxarmasından bəhs olunur. Nəşr "Legiya"nın rəsmi hesabında Mahirin şəkli ilə paylaşılan "Belə oyunlar əsla unudulmaz" qeydini də xatırladıb. Bildirilib ki, azarkeşlər köynəkləri onlayn əldə etməklə, o anları əbədi xatırlayacaqlar. Qeyd edək ki, millimizin futbolçusu Mahir Emrelinin şərəfini qoruduğu "Legiya" Avropa Liqasında növbəti oyununda İngiltərənin "Lester Siti" klubuna minimal hesabla qalib gəlib. Oyunda yeganə qolu start heyəyətdə meydana çıxan Mahir Emreli görüşün 31-ci dəqiqəsində vurub. Beləliklə, 24 yaşlı hücumçu komandasına vacib qələbə qazandırıb. Qeyd edək ki, ilk turda Moskvanın "Spartak" klubunu 1:0 hesabı ilə məğlub edən "Legiya" hazırda altı xalla C qrupunda liderdir.

## Azərbaycan Premyer Liqası: "Qarabağ" vahid lider oldu

Ötən həftə sonu futbol üzrə Azərbaycan Premyer Liqasında VI turun oyunları keçirilib.

Turun ilk oyununda "Zirə" və "Sumqayıt" komandaları üz-üzə gəlib. Zirə İdman Kompleksinin stadionunda keçirilən görüş meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Qarşılaşmada yeganə qolu 14-cü dəqiqədə "qartallar"ın belçikalı yarımmüdafiəçisi Loris Bronyo vurub. açan Merab Giqauri zədələnib. Gürcüstanlı oyunçunun əvəzinə meydana Rəhman Hacıyev daxil olub.

Beləliklə, ilk qələbəsini qazanan "Keşlə" 4 xalla 7-ci pilləyə yüksəlib. "Sabah" isə 1 xalla sonuncu - 8-ci yerdədir.

Günün ikinci matçında son çempion "Neftçi" klubu "Səbail"in qonağı olub. Qarşılaşma flaqmanın 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.




Bu qələbədən sonra xallarını 11-ə çatdıran "Zirə" 4-cü pillədə qərarlaşıb. "Sumqayıt" isə 7 xalla 5-ci sırada qalıb.

Növbəti oyun günündə turun daha iki qarşılaşması oynanılıb. Günün ilk matçında "Keşlə" klubu "Sabah"ı qəbul edib. "ASK Arena"dakı qarşılaşma meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. "Keşlə"nin ilk qolunu 3-cü dəqiqədə Merab Giqauri vurub. Matçın 90+5-ci dəqiqəsində isə Felipe Santos fərqlənib.

Qalib komanda üç dəfə məcburi əvəzetməyə əl atıb. 28-ci dəqiqədə zədələnən Elçin Mustafayevi Rafael Məhərrəmli əvəzləyib. 42-ci dəqiqədə İlkin Qırtımov eyni səbəbdən yerini Kərim Diniyevə verib. 52-ci dəqiqədə isə hesabı "Ağ-qaralar"ın heyətində Yusuf Laval 26-cı dəqiqədə hesabı açıb. Qonaqların yeni transferi Tiaqo Bezerra 45+1-ci dəqiqədə fərqi iki topa çatdırıb. Braziliyalı hücumçu 78-ci dəqiqədə özünün ikinci komandasının üçüncü qoluna imza atıb. Matçın 90+5-ci dəqiqəsində Nikolas Raysel meydan sahiblərinin təsəlli qolunu vurub.

Tura oktyabrın 3-də "Qarabağ" - "Qəbələ" qarşılaşması ilə yekun vurulub. "Azersun Arena" stadionunda keçirilən görüş Ağdam təmsilçilərinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. Qurban Qurbanovun yetirmələrinin heyətində Abdulla Zubir və Ramil Şeydayev fərqləniblər. Qələbə sayəsində xallarının sayını 14-ə çatdıran "Qarabağ" liderliyə yüksəlib. "Qəbələ" isə 11 xalla üçüncü yerdə qalıb.

## UEFA-nın reytinq cədvəlində dəyişiklik olub

UEFA avrokuboklarda qrup mərhələsinin ikinci turundan sonra yeni reytinq siyahısını açıqlayıb. "Qarabağ" Konfrans Liqasının qrup mərhələsində Kiprdə "Omoniya"nı məğlub etməklə (4:1) ölkəmizin aktivinə daha 0,500 xal yazdırıb. Beləliklə, 2021/2022-ci il mövsümdə Azərbaycanın xal sayı 2,875-yə, son 5 mövsümdə ümumi xal sayı isə 15.500-a çatıb. Ağdam təmsilçisinin bu qələbəsindən sonra Azərbaycan Qazaxıstana çatıb. Hər iki ölkənin 15,500 xalı var. Əlavə göstəricilərdə üstün olan ölkəmiz Qazaxıstanı arxada qoyub. Bir pillə irəliləyən Azərbaycan 28-ci yerə yüksəlib. Qeyd edək ki, cədvələ İngiltərə başçılıq edir - 90,641 xal.

## Əfsanəvi futbolçunun xatirəsinə yoldaşlıq oyunu keçiriləcək

Ötən ilin noyabrında vəfat edən argentinalı sabiq futbolçu Dieqo Maradonanın xatirəsinə futbol üzrə İtaliya və Argentina yığmaları arasında yoldaşlıq oyunu keçiriləcək. Bu barədə Cənubi Amerika Futbol Konfederasiyasının




(KONMEBOL) mətbuat xidməti məlumat yayıb. Qurumun UEFA ilə razılıq əldə etdiyi bildirilib. Maradonanın xatirəsinə həsr olunan oyun 2022-ci ilin iyununda olacaq. Dəqiq tarix hələ bəlli deyil. İtaliya yığması bu il keçirilən Avro-2020-ni, Argentina millisi isə Amerika kubokunu qazanıb. Maradona 2020-ci ilin noyabrın 25-də 60 yaşında vəfat edib.



## Maskalı şəxslər Messinin ailəsi qaldığı məşhur hotelə basqın edib

Naməlum şəxslər PSJ-nin argentinalı futbolçusu Lionel Messinin yaşadığı "La Royal Monceau" hotelini qarət ediblər. Belə ki, cinayətkarlar binanın damından enərək Lionel Messinin mənzilindən bir mərtəbə yuxarıdakı dəhlizə daxil olublar. Maskalı şəxslər dörd otaqdan pul və qiymətli əşyalar oğurlayıblar. Ailəsi ilə birlikdə hoteldə yaşayan L.Messinin isə artıq Parisdə fərdi ev aldığı və yaxın günlərdə oraya köçəcəyi bildirilir.

# Dünya idmanı






## Useyn Bolt musiqi albomu buraxıb

Atletika üzrə səkkizqat Olimpiya çempionu yamaykalı atlet Useyn Bolt idman karyerasını başa vurandan sonra musiqi ilə məşğul olmağa qərar verib. Bolt artıq bu sahədə də sözünü deməyə başlayıb.

O, "Country Yuyes" adlı ilk musiqi albomunu çıxarmağa və hətta onun təqdimat mərasimini keçirməyə də nail olub. Mərasimdə Bolt özünün "9,8 Records" leyblini də nümayiş etdirib.

Mərasimdə Bolt maraqlı açıqlama verib: "Hamı məni atlet kimi tanıyır. İndi isə bununla hamıya sübut etmək istəyirəm ki, mən musiqi ilə də məşğul olmağı bacarıram. Əslində mən hələ 3 il əvvəl belə bir musiqi albomu yaratmaq haqda məlumat vermişdim. Sonradan isə pandemiya başladı və mənim albom hazırlamaq üçün yetərincə vaxtım oldu. Bütün Yamayka Bob Marlini tanıyır və onu dinləyib. Mən hələ 8-9 yaşlarından "oldskul reqqi" musiqisinə maraq göstərmişəm. On yeddi yaşımda Kinqstona gələndən sonra isə kluba getməyə başladım. Hamıya yaxşı məlumdur ki, yamaykalılar həmişə rəqs edirlər. Buna görə də biz "reqqi" və "densxoll" kimi spesifik musiqi yaratmışıq".

## "Audi" və "Porshe"
## Formula 1-in yeni iştirakçıları ola bilər



Almaniyanın "Volkswagen" konserninin tərkibinə daxil olan "Audi" və "Porshe" şirkətləri Formula 1 üzrə dünya çempionatında çıxış edən komandaların mühərrik tədarükçüsü ola bilər. Bu, adıçəkilən şirkətin yarış iştirakçılarının sırasına daxil olmasına imkan yaradacaq.

"Auto Motor" nəşrinin almaniyalı jurnalisti Mixael Şmidtin sözlərinə görə, "Audi" və "Porshe" nümayəndələri Beynəlxalq Avtomobil Federasiyasının (FIA) rəsmiləri və Formula 1 komandaları üçün mövcud mühərrik tədarükçüləri ilə görüşdükləri, onlarla birlikdə 2026-cı il və sonrakı dövrdə avtomobil mühərrikləri üçün yeni texniki tələblər hazırladıqları üçün bu hadisənin baş vermə ehtimalı yüksəkdir: "Yekun qərar 8 - 10 oktyabrda Türkiyədə keçiriləcək Qran-priyədək qəbul olunacaq. Hər şey razılaşdırıldığı kimi getsə, "Audi" və "Porshe" 2026-cı ildə yarışa daxil olacaq. Onların əsas şərti MGU-H (motor-generator) mühərrikindən imtina etməkdir. Bu baş versə, hər iki avtomobil istehsalçısının Formula 1-in bir hissəsi olacağına əmin ola bilərsiniz".

Hazırda Formula 1 bolidlərini mühərriklə İtaliyanin "Ferrari", Yaponiyanın "Honda", Fransanın "Renault" və Almaniyanın "Mercedes" şirkətləri təchiz edir. Daha əvvəl "Honda" 2022 -ci ildə Formula 1-dən çıxacağını elan edib.

## Moskva Avropa çempionatını qəbul edəcək

Velosiped idmanının BMX-fristayl növü üzrə Avropa çempionatı 2021-ci ildə Moskvada keçiriləcək. Bu barədə Avropa Velosipedçilər Birliyinin vitse-prezidenti Aleksandr Qusyatnikov məlumat verib. O qeyd edib ki, Avropa çempionatının Moskvada keçirilməsi təsdiqlənib. Çox yaxın gələcəkdə müqavilə imzalanacaq. Qeyd edək ki, BMX-fristayl idman növü Tokio-2020-də debüt edib.

## Həndbolçular danışılmış oyunlara görə cəzalandırıldılar

Rusiya Həndbol Federasiyasının İcraiyyə Komitəsi Avropa çempionatında danışılmış oyunlara çıxan U-19 yığmasının üzvlərinin diskvalifikasiya müddətini təsdiqləyib. Bu barədə qurumun baş direktoru Lev Voronin jurnalistlərə açıqlamasında bildirib. Onun sözlərinə görə, Maksim Naydunov, Georgi Kirilenko, Daniil Dmitriyev və Aleksandr Morozov 5 illik diskvalifikasiya olunub. Nikita Qolovyov və Maksim Yermolin 2 illik cəza alıb. Dmitri Kandıbin və Dmitri Frolov isə 2022-ci il iyunun 30-dək idmandan kənarlaşdırılıb. Həndbolçuların diskvalifikasiya müddəti 2021-ci il sentyabrın 21-dən hesablanır.

Voronin deyib ki, Avropa çempionatı vaxtı oyunların danışılmış olmasına dair siqnal alıb və bunu aydınlaşdırmaq üçün dərhal baş məşqçi ilə əlaqə saxlayıb. Qeyd edək ki, Rusiya Həndbol Federasiyası daha əvvəl adıçəkilən idmançıları müvəqqəti diskvalifikasiya edib. Onlar millinin heyətində üçüncü tərəfin vasitəsilə bukmeyker kontorlarında mərc edib, əvvəlcədən razılaşdırılmış nəticəyə nail olublar.

**olimpnews.az - sizin saytınız**



Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19